❍ Son zamanlar ard-arda yazılan nəsr əsərləri və şeirlər çağın reallığında nə qədər dəyərləndirilib qiymətini ala bilir? Bu məsələni stimullaşdırmaq baxımından "Ədəbiyyat qəzeti" ötən saylarımızdan başlayaraq yeni layihəyə start verib. **"Tənqid və mətn"** adlanan bu layihəyə ilk olaraq, hekayə janrından başladıq. Hər ay təqdim olunan hekayələr tənqidçilərin müzakirəsinə verilir. Müzakirələrdən sonra müəllifin əsərlə bağlı yazılanlara reaksiyası da qəzetdə əksini tapır. Seçilən 12 hekayənin təhlilindən sonra ekspertlərin rəyləri əsasında ən yaxşı 3 hekayə müəllifi mükafatlandırılacaq. Müzakirəyə çıxarılan növbəti mətn **Cavid Zeynallının "Coğrafiya müəlliminin pencəyi"** hekayəsidir.

**Redaksiyadan**

"İbrahim müəllim birdəncə qalxdı ayağa, yapışdı korun yaxasından. Çəkdi özünə, baxdı deşik-deşik olan bəbəyinin düz ortasına. Baxdı, baxdı, lap axırda elə bağırdı, elə bağırdı:

- Məni ələ salıbsan, oğraaaş?

İbrahim müəllimin bağırtısından daxmanın pəncərəsində oynaşan payız çiskini diksindi, araq şüşəsinə çat düşdü.

- Məllim, burax yaxamı. Məllim...
- Dedim, məni dolayıbsan, oğraş?
- Bu nə sözdü, məllim?
- Sən götürüb gizlədibsən, hə?

Həsənağa day heç nə demədi."

Dolmuş bulud boşalır, şimşək çaxır və hadisələrin psixoloji gedişi əks istiqamətə yönəlir - İbrahim müəllim heç nəyi vecinə almamaq qərarına gəlir. O, hətta Bakıya - tələbə dostunun oğlunun sünnət toyuna getmək üçün özünə təzə pencək almaq fikrinə

# Romantik paradiqmanın sonu



**Əsəd CAHANGİR**

Cavid Zeynallının "Coğrafiya müəlliminin pencəyi" hekayəsinin ilk etiraz doğuran tərəfi onun adıdır - Əli Kərimin məşhur "Coğrafiya müəlliminin şəhadət barmağı haqqında ballada" şerini yada salır. Söhbət sadəcə, adda deyil, Cavid və onun bir çox ədəbi yaşıdlarında 60-cı illəri xatırladan bir şeylər var. Hər şey bir yana, indi 60-cılar özləri artıq başqa cür düşünür, başqa cür yazır və onların son yazıları, məsələn, Elçinin "Baş" romanı, eləcə də 90-cılardan Həmid Herisçinin "Solaxay" romanı sözün müsbət anlamında bu başqalaşmanı bütün aydınlığı ilə göstərir. Bədii düşüncəmiz təkcə coğrafiyadan (yerə bağlılıq!) yox, ümumən materialist xurafatdan, ateist mövhumatdan, bir sözlə, maarifçi-rasional doqmatizmdən getdikcə və getdikcə daha çox arınır, irrasional, metafizik ölçülər qazanır. Leninin əlinə zərrəbin alıb, Hegeldə "səmərəli rasional toxum" axtardığı dövrün kölgəsi ədəbiyyatın üstündən getdikcə çəkilir. Bədii fikri ilgiləndirən indi daha mürəkkəb məsələ - bilavasitə ruhun özünün çoğrafiyası, ruhun fenomenologiyasıdır.

Amma Cavidin hekayəsində elə bir məqam var ki, onu nəinki 60-cılar, hətta öz ədəbi yaşıdlarından da fərqləndirir və bu yazıdan məqsədimiz o fərqi üzə çıxarmaqdır. Fikrimiz tam aydın olsun deyə əsas məsələyə keçməzdən öncə kiçik bir nəzəri remarkaya ehtiyac duyuruq.

Hekayə janrını adətən oxunaqlı süjetə, gözlənilməz finala malik Mopassan hekayəsi ("Boyunbağı"), dərin psixologizm və xarakterə söykənən Flober hekayəsi ("Təmiz ürək") deyə iki qismə bölürlər. Milli nəsr düşüncəmizdə xarakter hekayəsinin klassik örnəkləri ("Poçt qutusu", "Usta Zeynal" və s.) Cəlil Məmmədquluzadə qələminə məxsusdur. 60-cı illərin yazıçıları da məhz bu ənənəni davam etdirirdilər. Onların ən səciyyəvi hekayələrində əsas məsələ bir qayda olaraq qəhrəmanın ruhi-psixoloji aləmində gedən proseslərlə bağlı olur və buna uyğun olaraq problemin çözümü daha çox insanın daxilində baş tuturdu. Bu cür yanaşma məsələlərin həllini insanın iç dünyasında axtaran ekzistensialist fəlsəfə və ədəbiyyatın təsiri ilə önəmli dərəcədə bağlı idi. Bu, məsələnin fəlsəfi tərəfi idi.

Stalinin ölümündən sonra siyasi rejimin nisbətən mülayimləşməsi, bədii sözə ideoloji təpkinin müəyyən qədər azalması ədəbiyyatdakı inqilabçı və ya istehsalatçı obrazını sadəcə insanla əvəz etməyə, tipik sovet ədəbiyyatı üçün səciyyəvi olan pafos və patetikadan yan keçməyə, insanın daxili aləminə enməyə yazıçılara imkan verirdi. Bu isə məsələnin siyasi tərəfi idi.

Sadəcə, maraqlı əhvalat üstündə qurulan hekayələr (tutaq ki, S.Qədirzadənin yaradıcılığı) isə belletristik bir şeylər, qeyri-ciddi ədəbiyyat örnəkləri sayılırdı. Təbiidir ki, bu iki xüsusiyyəti özündə birləşdirən hekayələr də var idi, məsələn, Elçinin "Parisdə avtomobil qəzası" hekayəsi. Yeri gəlmişkən, bu hekayənin də qəhrəmanı (Kərim) çoğrafiya müəllimidir. Amma ən ümumi şəkildə götürəndə 60-80-ci illər hekayələrində ən önəmlisi hadisə yox, müəyyən xarakterlərin müəyyən durumlarda çıxardığı daxili qərarlar, problem üzərində mənəvi qələbə idi. Daxili təskinlik nəhəng sovet əjdahası ilə açıq toqquşmada ədəbiyyatın dayaq nöqtəsinə çevrilmişdi.

"Coğrafiya müəlliminin pencəyi" hekayəsinə məhz bu yöndən - hadisə və xarakter məsələsi baxımından yanaşanda maraqlı bir faktla üzləşirik - müəllif bu iki məsələni bir araya gətirir. Və bu fakt sadəcə cavan bir yazarın yox, onun təmsil etdiyi zaman və ədəbi nəslin məsələyə münasibətini öyrənmək yönündən maraqlıdır.

Kənd müəllimi, kasıb, amma namuslu əyalət ziyalısı İbrahim öz həmkarı Xədicə müəlliməyə verdiyi bir neçə yüz manat borcu geri aldığını və sonra itirdiyini zənn edir. Bütün hekayə həmin pulla min bir problemi çözəcəyini, arvadı Nərgiz, oğlu Murad və qızı Məryəmə ən zəruri şeylər alacağını planlaşdıran İbrahim müəllimin gərgin psixoloji durumuna, onun daxili dramının açılışına həsr olunub. Yalnız finalda məlum olur ki, pullar itirilməyib və itirilə bilməz, çünki Xədicə müəllimə hələ o pulları qaytarmayıb və sən demə, coğrafiya müəllimini sadəcə qara basırmış. Beləliklə, fabulanın daxili əsasında qarabasma durur və bu Cavidin hekayəsini metodoloji yöndən realist-psixoloji nəsr örnəyi kimi dəyərləndirməyə əsas verir. (Qarabasma sözünü yadda saxlayaq, çünki məqalənin finalında bizə yenidən lazım olacaq!)

İlk baxışdan elə görünür ki, "Coğrafiya müəlliminin pencəyi" nə problem, nə mövzu, nə də xarakter baxımından 60-80-ci illər hekayələrindən elə də fərqlənmir. Və hətta sual doğur - görəsən, bu hekayəni yazmağa nə ehtiyac var idi? Təkcə ona görəmi ki, maddi güzəran çətinliyi mövzusu bu gün də 60-cı illərdə olduğu kimi aktualdır? Bəli, aktualdır, amma sadəcə mövzu aktuallığı hər hansı bədii mətni təqdir etməyə doğrudanmı yetərlidir?

Bütün zahiri oxşarlığına baxmayaraq, istər problemin həlli, istərsə də hekayənin üslubu baxımından Cavidin 60-cılarla gizli bir qarşıdurması var. Hekayənin altyapısında diqqəti çəkən ən başlıca cəhət 60-80-ci illər hekayələrindən fərqli olaraq "Coğrafiya müəlliminin pencəyi"ndə açılışın iki dəfə baş verməsidir. Cavid heç vaxt postmodernist mətn yazmayıb və onun bu hekayəsinin də postmodernizmə birbaşa, açıq şüur müstəvisində heç bir dəxli yoxdur. Amma o, postmodernist dövrünün yazarıdır. Elə bir dövrün ki, əsərdə bəzən çoxsaylı açılışların baş verməsinə baxmayaraq, problem çözülmür (Faulzun "Cadugər", Ekonun "Qızılgülün adı", Den Braunun "Da Vinçi kodu"nu yada salaq). Görünür, dövrün mental-psixoloji aurası yazıçı iradəsindən kənar, alt qatda onun şüuruna və bu şüurun bədii realizəsi olan mətninə təsirsiz ötüşmür. Cavidin hekayəsində problem finalda çözülür (pul tapılır) və bu, onun hekayəsini postmodernist əsərlərdən ayırır. Lakin burda o qədər də gizli olmayan bir paradoks var. Hekayədə itməyən pul tapılır (?) və deməli, olmayan problem çözülür. Yəni çözülən problem əslində mövcud deyil - simulyakrdır və bu, hekayəni yeraltı axınlarla postmodernist ədəbiyyat dənizinə qovuşdurur. Amma bir daha xatırladaq - bu yaxınlaşma üslubi yox, düşüncə planındadır, özü də şüuraltı düşüncə planında. Burda dənizə axan yeraltı çaylardır.

Hekayədə birinci açılış daxili, psixoloji, mənəvi planda gedir. İtirilmiş pulun acısını bəsdi deyincə yaşayan, fikrində dağı arana, aranı dağa daşıyan İbarhim müəllim ona mənəvi dəstək durmaq üçün qonaqlıq verən məktəb gözətçisi, şikəst Həsənağadan şübhələnir. Bu, qəhrəmanın daxilində gedən proseslərdə kulminasiya nöqtəsi və əsaslı dönüş anı, problemin psixoloji həllinin astanasıdır. Ağır güzəran problemlərinin illərdən bəri yaratdığı qara enerji bir vulkan kimi püskürərək heç bir suçu olmayan Həsənağanın üstünə tökülür: düşür. Beləliklə, problem de-fakto öz həllini tapmasa da, ekzistensial olaraq, yəni daxilən çözülür. Məşhur ekzistensial devizi xatırlayaq - dünyada bircə həqiqət var, qəlbin həqiqəti. Əgər İbrahim müəllim itkiyə baxmayaraq, qəlbən, ruhən təskinlik tapırsa, deməli məsələ çözülmüş sayıla bilər. Əslində isə məsələnin bu cür həlli özünüqoruma instinkti ilə taxılan psixoloji maskadan başqa bir şey deyil.

Bura qədər Cavid hələ 60-cı illər nəsri düşüncəsi və ənənələri çərçivəsində yazır. 60-cı illər nəsrinə alışan oxucu da öz növbəsində məsələnin xətm olunduğunu düşünür. Müqayisə üçün "Gilənar çiçəyinə dediklərim"də (Ə.Əylisli) problemin həlli üsulunu xatırlayaq. Əsərin qəhrəmanı universitetdə işə düzəlmək üçün rüşvətxor müəllimə pul verməkdən imtina edir və finalda dərdini çiçəkləmiş gilənar ağacına deməklə məsələni "həll edir". Yəni problem özünün praktik yox, mənəvi həllini tapır. Qəhrəman problemi həll etmir, ondan yan keçir. Əvəzində əsər qəhrəmanın mənəvi "qələbəsi" ilə bitir - o rüşvət aktının iştirakçısı olmur.

Cavidin itmiş pul problemini heç cür həll edə bilməyən qəhrəmanı da eyni durumu yaşayır - heç cür çözə bilmədiyi problemi saya salmamaq qərarına gəlir. Amma Əylislinin qəhrəmanından fərqli olaraq İbrahim müəllimin mənəvi dayağı sadəcə ağac yox, dənizi, çayı, buludu, küləyi, ilanı-qurbağası, yəni sadəcə xeyri yox, həm də şəri ilə birlikdə bütün təbiətdir. Qəhrəmanın mənəvi dayaqları sırasına ev quşları və taxıl kisələrinin əlavəsi isə romantik təbiət kultundan yumoristik məişət müstəvisinə keçidi işarələyir:

"İbrahim müəllim dünyadan xəbərsiz hüdüləyib tökəndə Nərgiz bacı özü boyda sual işarəsinə dönüb soruşurdu: nəynən gedəcəksən? Nəynən e, nəynən? İbrahim müəllim arvadının sual işarəsinə döndüyünü görüb udqunanda bayırdan hinduşka hökkültüsü gəldi, xoruz banladı, ördək vaqqıldadı. Hinduşkalar dedi: bizi sat. Ördəklər dedi: bizi də. Xoruz dedi: məni də, məni də. Anbarda buğda kisələri yerində dingildədi: yaddan çıxmayaq. Nərgiz bacının sırğası qulağında oynaqladı: bə mən?"

Bu, sentimental-romantik paradiqmanın süquta uğradığı, praqmatizmin hakim düşüncə tipinə çevrildiyi dövrün təmsilçisi kimi Cavidin Ə.Əylisinin poetik nəsri və onun təbiət kultuna şüuraltı ironiyasının ifadəsi-

dir. Bir daha təkrar edirik - söhbət dərk olunmuş yox, məhz şüuraltı ironiyadan gedir. Açıq şüur müstəvisində isə Cavid 60-cılarla həmrəydir. Təbiət kultunun hekayəyə daxil olması da (hekayə qol-lu-budaqlı bir ağacın təsviri ilə başlayıb, müəllimin öz köhnə pencəyini ağacın başına tolazlaması ilə bitir) bu həmrəyliyin göstəricisidir.

Lakin problemin daxili-mənəvi planda həlli kapitalizmə keçid dövrünün yazıçısı kimi Cavidi qane etmir, özü də söhbət puldan gedəndə. O, hekayəyə ikinci açılışı daxil edir və problemin həlli daxili plandan zahiri hadisə qatına çıxır. Məktəbin gözətçisi Həsənağa ailə-uşağı ilə birlikdə Bakıya gəzməyə gələn İbrahim müəllimə zəng edir və aydınlaşır ki, pul itirilməyib. Şərti işarələr diliylə desək, Flober mövzusuna final akkordu Mopassan ədası ilə vurulur, hekayə novella xarakteri alır. Təkcə qəhrəman yox, oxucu da aldandığını başa düşür və onun bu mənalı aldanışdan aldığı zövq göstərir ki, müəllif öz başlıca məqsədinə nail olub, yəni hekayə alınıb. "Coğrafiya müəlliminin pencəyi" sadəcə cavanların yazdıqları yox, ümumən son illərdə meydana çıxan hekayələr arasında örnək sayılmağa layiq bir neçə mətndən biri və şübhəsiz ki, öz müəllifinin qələbəsidir. Hekayədəki iki açılışdan birincisi tam, ikincisi isə onun qəti qələbəsinin göstəricisidir. Bunlardan birincisi məsələnin daxili (psixoloji), ikincisi isə zahiri (hadisə) planda həllidir. Odur ki, bu iki planın birləşməsi mahiyyət etibarı ilə xarakter hekayəsi və hadisə hekayəsinin birləşməsi anlamına gəlir.

Lakin yuxarıda da dediyimiz kimi, əslində pul itməyib və itməyən bir şey tapıla da bilməz. Deməli, müəllifin başlıca məqsədini də biz bu iki açılışın heç birində axtarmamalıyıq. Hekayənin əsas ideyası nə birinci, nə də ikinci açılış yox, onların hər ikisinin altından göz vuran, bütün hekayə boyu mətnin altı ilə ağır-ağır axıb gedən üçüncü "açılışdadır". Müəllif bu barədə "susur", mətn bu haqda açıq-aşkar heç nə demir. Üçüncü açılış Folknerin "yazıçı danışmamalı, göstərməlidir" prinsipi üzrə sükutun dili ilə nümayiş etdirilir. Bu açılışı oxucu özü edir. Müəllif bu haqda bir kəlmə belə işlətməsə də, onun kamerası bütün hekayə boyu bu məsələnin üzərinə fokuslanır - müasir insanın, xüsusən də ziyalının maddi güzəran sorunları onu qarabasmalarla üz-üzə qoyub, ağlını itirmək həddinə çatdırıb. Beləliklə, getdikcə kapitalistləşməkdə olan cəmiyyət qanunlarının insan psixologiyasında yaratdığı deformasiyanı göstərmək müəllifin başlıca məqsədinə çevrilir. Nəsrin publisistikadan əsas fərqi, Cavidin bir nasir kimi əsas uğuru da burda üzə çıxır.

**Ədəbiyyat qəzeti.- 2017- ci il.- 20 yanvar.- S. 15.**